# SÖZ YARADICILIĞI MONOQRAFİK MÜSTƏVİDƏ

Filologiya elmləri doktoru Qətibə Çingiz qızı Mahmudovanın "Söz yaradıcılığı (türk dillərinin materialları əsasında)" ("Elm və təhsil", 2025) monoqrafiyası işıq üzü görüb. Giriş, 4 fəsil, nəticə hissələrindən ibarət bu kitaba filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Əliyeva dəyərli ön söz yazıb, müəllifin 10 ildən artıq zəhmətinin bəhrəsi olduğunu göstərir.

Monoqrafiyanın Girişində müəllif söz yaradıcılığının türk dillərində sistemli şəkildə öyrənilməsinə XX əsrin əvvəllərindən, Azərbaycan dilçiliyində isə Səlim Cəfərovun tədqiqatı ilə başlanıldığını bildirir. Daha sonra isə istər türk dünyasında, istərsə də Azərbaycanda söz yaradıcılığı ilə bağlı aparılmış tədqiqatlara toxunur.

"Müasir türk dillərində söz yaratmanın elmi-nəzəri və koqnitiv əsasları" adlı ilk fəsildə Qətibə Mahmudova ilk olaraq dilçilikdə söz yaradıcılığının yeri və mövqeyi məsələsinə aydınlıq gətirməyə çalışır və bu zaman bu sahə ilə məşğul olan mütəxəssislərin yaradıcılığına üz tutur. Alim bu zaman rus dilçiliyində və eləcə də türk xalqlarının dilçiliyində aparılan tədqiqatların hansı istiqamətlərdə getdiyinə diqqəti yönəldir: "Dildə yeni sözlərin yaranması söz yaradıcılığı adı altında reallaşır. Söz yaradıcılığının dilçiliyin hansı bölməsinə mənsubluğu dilçiliyin bir bölməsi, yoxsa dilin bütün qatlarında gedən bir proses olması bu gün də dilçilərin müzakirə mövzularından hesab edilir.

Ümumi dilçilikdə söz yaradıcılığı gah müxtəlif bölmələrin tərkibində, gah da müstəqil bir bölmə kimi öyrənilmnişdir. 1950-ci illərdən rus dilçiliyində söz yaradıcılığının leksikadan ayrılıqda tədqiq olunması meyilləri yaranmışdır. Artıq 1975-ci ildə "Müasir rus dili" əsərində söz yaradıcılığı ayrıca bölmə kimi verilir. Lakin V.V.Vinoqradovdan əvvəl N.M.Şanski söz yaradıcılığını morfologiya ilə, sintaksislə yanaşı müstəqil şöbə hüququnda qrammatikaya daxil etmişdir. Rus dilçiliyində söz yaradıcılığını ayrıca bir bölmə kimi qəbul etmək ənənəsinin N.M.Şanskiylə başladığını deyə bilərik.

Lakin Rusiya dilçiliyində söz yaradıcılığının yeri birmənalı şəkildə müəyyənləşməyib. Burada söz yaradıcılığına həm ayrıca bir bölmə kimi baxılır, həm də hər nitq hissəsindən danışdıqda ayrıca o nitq hissəsində gedən söz yaradıcılığı prosesindən bəhs olunur. İsimdən bəhs edildikdə isimdə gedən söz yaradıcılığı prosesi, sifətdən bəhs edildikdə isə sifətdə gedən söz yaradıcılığı prosesi araşdırma obyektinə çevrilir.

L.A.Bulaxovskinin "Rus ədəbi dilindən kurs" əsəri 3 hissədən ibarətdir. Əsərin 3-cu hissəsi belə adlanır. "Morfologiya. I Söz yaradıcılığı". Bu hissədə də ayrı-ayrılıqda isim düzəldən şəkilçilərdən, sifət düzəldən şəkilçilərdən və s. bəhs olunur. Maraqlıdır ki, morfologiyaya aid əsərlərdə də söz yaradıcılığından bəhs olunur. L.A.Bulaxovskinin "Dilçiliyə giriş" əsərinin II hissəsi "Leksikologiya" adlanır. Bu hissədə "Söz yaradıcılığından istifadə vasitələri" adlı bölmə verilir. "Sözdüzəltmənin nitq hissələri ilə münasibəti" adlı başlıq da bu hissədə yer almışdır. Deməli, L.A.Bulaxovski söz yaradıcılığını leksikologiyanın tərkibində öyrənməyə üstünlük vermişdir.

Morfologiyada söz yaradıcılığına hüquqi yer verilməsi də V.Vinoqradovun adı ilə bağlıdır. V.V.Vinoqradov bildirir ki, söz yaradıcılığının qrammatikanın morfologiya şöbəsinə daxil olması ənənəsi M.V.Lomonosovla başlanır. Bildiyimiz kimi, M.V.Lomonosovun dilçiliyə də dair dəyərli fikirləri olmuşdur. İlk dəfə o, söz yaradıcılığını morfologiyanın tərkibində öyrənilməsini təklif etmişdir.

V.İ.Abayevin "Osetin dilinin qrammatik oçerki" əsəri 4 bölmədən ibarətdir. I Fonetika, II Morfologiya, III Söz yaradıcılığı, IV Sintaksis adlanır. Gördüyümüz kimi, V.İ.Abayev osetin dilinin söz yaradıcılığını ayrı bir bölmədə öyrənmişdir.

1970-ci ildə çap olunmuş "Türkmən dilinin qrammatikası" əsərinin I hissəsi "Fonetika və Morfologiya" adlanır. Müəlliflər türkmən dilində morfoloji və sintaktik yolla söz yaradıcılığından hər nitq hissəsindən bəhs etdikdə söhbət açmışlar. Deməli, türkmən dilçiliyində söz yaradıcılığı ayrıca bir bölmə kimi yox, nitq hissələrində gedən bir proses kimi öyrənilmişdir.

Qırğız dilçisi B.Yunusəliyevin "Qırğız dilinin leksikologiyası" əsərinin I hissəsində bütöv halda qırğız dilinin söz yaradıcılığı tədqiq olunmasa da, alim ad və feil duzəldən aktiv və ölü şəkilçiləri, mürəkkəb sözləri tədqiq obyektinə çevirmişdir. B.Yunusəliyev də sözdüzəldici şəkilçiləri, sintaktik yolla düzələn mürəkkəb sözləri leksikologiyanın tərkibində öyrənməyə çalışmışdır" (s.12-13).

Bu minvalla Qətibə xanım təkcə rus, osetin türkmən, qırğız dilləri üzərində aparılan araşdırmalara yox, həmçinin qazax, qaqauz, noqay, qaraqalpaq türkləri və eləcə də Türkiyə dilçiliyi sahəsində aparılan tədqiqatlara elmi baxımdan ekskurs edir, həmin dilçilərin söz yaradıcılığı məsələsinə dilçilikdə hansı kontekstdən yanaşmaları amilinə aydınlıq gətirir. Nəticədə belə bir qənaətə gəlir ki, "rus dilçiliyində olduğu kimi, Türkiyə dilçiliyində də söz yaradıcılığının dilçilikdəki yeri və mövqeyi tam müəyyənləşməmiş qalır". Məhz dilçilikdə söz yaradıcılığının araşdırılması müstəvisində vahid, yekdil rəyin olmaması məsələsindəki boşluğu doldurmaq məqsədilə Qətibə Mahmudova belə bir tədqiqatın aparılmasına zərurət hiss etmiş, bu məsələnin Azərbaycan dilçiliyindəki mövqeyinə də nəzər salmışdır. "Söz yaradıcılığının dilçiliyin bir bölməsi, yoxsa morfologiyanın tərkib hissəsi olması ilə bağlı Azərbaycan dilçiləri özlərinəməxsus və maraqlı fikirlər irəli sürmüşlər" deyən tədqiqatçı bu xüsusda fikirlərinə davam edərək yazır: "Azərbaycan alimlərinin bu sahədəki araşdırmalarında söz yaradıcılığının sərhədlərinin tam müəyyənləşmədiyini görmək mümkündür. İndiyə qədər söz yaradıcılığından bəhs edən Azərbaycan dilçiləri, bu sahəni tədqiq edən alimlər, araşdırmaçılar söz yaradıcılığı bölməsini həm morfologiyanın, həm də leksikologiyanın tərkibində öyrənmişlər. Bəzi alimlər isə söz yaradıcılığından ayrıca bir bölmə kimi bəhs etmişlər.

"Müasir Azərbaycan dili" kitabında söz yaradıcılığından "Leksikologiya" bölməsində bəhs edilir, H.Həsənovun "Müasir Azərbaycan dilinin leksikası" əsərində də məsələ eyni qaydada qoyulur, söz yaradıcılığı leksikologiyanın tərkib hissəsində öyrənilir.

S.Cəfərov "Müasir Azərbaycan dili. Leksika" adlı kitabında söz yaradıcılığından ayrıca bir bölmə kimi bəhs edir. Lakin kitabın adı "Leksika"dır. Deməli, S.Cəfərov söz yaradıcılığını müstəqil sahə kimi verməyə çalışsa da, yenə onu leksikanın tərkibində öyrənmişdir.

Məsələ burasındadır ki, istər rus dilçiliyində, istərsə ümumi türkologiyada, istərsə də Azərbaycan dilçiliyində morfologiyadan bəhs edilən bütün əsərlərdə söz yaradıcılığından yazmaq ənənəvi bir hal almışdır. Məsələn, M.Hüseynzadənin "Müasir Azərbaycan dili" (Morfologiya) adlı dərsliyində nitq hissələri üzrə söz yaradıcılığı belə başlıqlarda verilir: "İsmin quruluşca növləri", "Sifətin quruluşca növləri", "Feilin quruluşca növləri". Nəzərə alsaq ki, bu kitab 4 cildlik "Müasir Azərbaycan dili"nin 3-cü cildidir. "Leksikologiya"ya aid II cilddə isə söz yaradıcılığı bəhsi var. Eləcə də AMEA-nın "Müasir Azərbaycan dili" adlı 3 cildliyinin "Leksikologiya" bölməsində söz yaradıcılığından bəhs edilir, eyni məsələ kitabın II cildində də nitq hissələri üzrə verilir. Deməli, Azərbaycan dilçiliyində həm morfologiya, həm də leksikologiyaya aid yazılmış əsərlərdə söz yaradıcılığı bölməsi eynilə təkrarlanır. Söz yaradıcılığının morfologiyanın tərkibində verilməsinin də tarixi vardır. Belə ki, "... söz yaradıcılığı nəticə etibarı ilə leksikologiyanın problemidir. Söz yaradıcılığının müstəqil bir bölmə kimi verilməsi də onu leksikologiyadan ayırmır". "... söz yaradıcılığı qrammatikanın (morfologiyanın) problemi deyil. Lakin onun qrammatik (morfoloji) aspekti var". Bildiyimiz kimi, morfologiyanın əsas mövzusu sözün morfoloji tərkibidir. Şəkilçi morfemlərə həm sözdüzəldici, həm də sözdəyişdirici morfemlər aiddir. Deməli, morfologiyada həm də söz yaradıcılığının əsas vahidi olan leksik şəkilçilər tədqiq olunur.

Ümumiyyətlə, Azərbaycan dilçiliyində sözdüzəldici şəkilçilərin söz yaradıcılığında sistemli şəkildə tədqiqi professor S.Cəfərovun adı ilə bağlıdır. 1949-cu ildə nəşr olunan "Müasir Azərbaycan dili" (Adlar və onları düzəldən şəkilçilər) əsərində dilimizdəki adlardan (adlar dedikdə - isimlər, sifətlər, say, əvəzlik, zərflər nəzərdə tutulur - Q.M.) düzələn adlardan, feillərdən ad düzəldən şəkilçilərdən bəhs edilir. S.Cəfərov burada ayrıca olaraq söz yaradıcılığı və yaxud leksikologiya bəhsindən deyil, yalnız ad və onları düzəldən şəkilçilərdən də bəhs etmişdir" (s.16-17).

Beləliklə, filologiya elmləri doktoru Qətibə Mahmudova Azərbaycan dilçilərindən Həsrət Həsənov, Səlim Cəfərov, Yusif Seyidov, Muxtar Hüseynzadə, habelə Qəzənfər Kazımov, Məhəbbət Mirzəliyeva kimi dilçilərimizin tədqiqatlarını analitik fikir süzgəcindən keçirir, rus və digər türk xalqları dilçiliyindəki oxşar mənzərənin Azərbaycan dilçiliyi üçün də eyni cür olduğunu müəyyənləşdirir. Yekunda isə türk dillərində sözyaratma prosesinin ümumi konturlarını, səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirir, bunu əyani şəkildə göstərə bilmək üçün sxem-cədvəl tərtib edir və həmin cədvəl əsasında dilçilikdəki söz yaradıcılığı ilə bağlı ümumi mənzərəni ortaya qoyur. Daha sonra isə dilçilikdəki bu ümumi mənzərəyə öz münasibətini bildirib, aşağıdakı şəkildə qəti fikir ortaya qoyur ki, "Araşdırmalar nəticəsində bu fikrə gəlmək olar ki, söz yaradıcılığının yeri hələ də dilçilikdə tam müəyyənləşməmişdir və dilçilərin bu mövzuda müxtəlif yanaşmaları mövcuddur. Ümumiyyətlə, dilçilik ədəbiyyatında söz yaradıcılığına ya dilçiliyin bir bölməsi kimi yanaşılmış, ya da o, morfologiyanın və yaxud leksikanın tərkibində öyrənilmişdir. Bizim fikrimizcə, söz yaradıcılığı nə morfologiyanın bir bölməsi, nə də dilçiliyin müstəqil bir sahəsidir. Söz yaradıcılığı sadəcə olaraq bir prosesdir. Dilin fonetik, leksikoloji, morfoloji, frazeoloji, sintaktik yaruslarında reallaşan yeni leksik vahidlərin yaranmasına xidmət edən bir proses" (s.20).

Məhz problemə belə geniş fikir çevrəsindən yanaşan filologiya elmləri doktoru Q.Ç.Mahmudova bu elmi zəmin üzərindən çıxış edərək fikirlərini digər fəsillərdə də davam və inkişaf etdirərək, dilçilik, türkoloji dilçilik elminə fundamental bir əsər təqdim etməyə nail olur.



***Şakir ALBALIYEV,***
***filologiya elmləri doktoru,***
***dosent***